## Əsrin müqaviləsi – 25 il

# Jurnalistlər üçün müsabiqəyə sayılı günlər qalır




❒ ***Azərbaycan Mətbuat Şurası və SOCAR AQŞ "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi münasibətilə kütləvi informasiya vasitələrinin təmsilçiləri arasında yaradıcılıq müsabiqəsinin şərtlərini açıqlayıb. Dörd istiqamət üzrə keçirilən müsabiqə haqqında müxbirimizə məlumat verən baş direktor Ramin İsayev bildirib:***

--SOCAR və Abşeron Qazma şirkəti tərəfindən 2007-ci ildə təsis edilmiş SOCAR AQŞ qazma və quyu xidmətləri göstərən birgə müəssisə kimi fəliyyət göstərir. Fəaliyyətində şəffaflığı önəmli prioritetlərdən biri hesab edən və mətbuata daim açıq olan şirkətimiz "Əsrin müqaviləsi"nin imzalanmasının 25 illiyi və "Neftçilər günü" ərəfəsində ölkə mətbuatının nümayəndələri ilə yeni bir tədbir keçirməyi qərarlaşdırdı.

Ümummilli lider Heydər Əliyev tərəfindən böyük uzaqgörənliklə həyata keçirilən və Azərbaycanın iqtisadi həyatında xüsusi yeri olan bu müqavilənin dəyəri o qədər böyükdür ki, onun tarixi, siyasi və beynəlxalq əhəmiyyəti haqqında hələ uzun illər danışılacaqdır. 20 sentyabr 1994-cü ildə imzalanmış, "Əsrin müqaviləsi" adlandırılmış, dünyanın 8 ölkəsinin və 13 ən məşhur neft şirkətinin iştirakı ilə həyata vəsiqə almış bu möhtəşəm layihə sayəsində Azərbaycanda ictimai-siyasi sabitliyə nail olundu, milli neft-qaz sənayemiz yüksələn xətlə inkişaf etməyə başladı.

Neft-qaz sənayesinin inkişafı öz növbəsində iqtisadiyyatın digər sahələrinin də canlanmasına cid-di təkan verdi. Eyni zamanda, bu müqavilə "Yeni neft strategiyası"nın əsasını qoydu, dünyanın inkişaf etmiş dövlətləri ilə Azərbaycan Respub-likası arasında davamlı konstruktiv əməkdaşlığı bərqərar etdi. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Əsrin müqaviləsi'' ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firəvan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır".

Müsahibimiz daha sonra qeyd etdi ki, SOCAR AQŞ də "Əsrin müqaviləsi"nin yetirməsidir. Müəssisə Azərbaycan qazmasının tarixi qabaqcıl rolunu müasir dünya qazma sənayesində uğurla davam etdirmək missiyasına sadiq qala-raq bu istiqamətdə əzmlə fəaliyyət göstərir. Müəssisənin ilbəil artan uğur tarixçələri qarşıya qoyulan hədəflərə çatmaqda əminliyi labüd edir.

Hazırda şirkət dayaz sulu "Günəşli" yatağında yerləşən 7 və 11 saylı, "Qərbi Abşeron" yatağının 10 saylı və "Bulla" yatağında 6 saylı Dəniz Stasionar Özüllərində (DSÖ) qazma işləri aparır. Bundan başqa, şirkət təchizat sistemlərinin, anbar təsərrüfatının və digər əlaqəli xidmətlərin idarə olunması sahəsində də zəngin təcrübəyə malikdir.

2009-cu ildən etibarən şirkət Qazma Podratçılarının Beynəlxalq Assosiasiyasının (International Asso-ciation of Drilling Contractors, IADC) üzvüdür.

SOCAR AQŞ inteqrə olun-muş qazma və quyu xidmətlərinin göstərilməsi sahəsində API Spec Q2-Keyfiyyət İdarəetmə Sisteminin stan-dartının tələblərinə uyğun sertifikat ilə təltif olunub. SOCAR AQŞ regionda API Spec Q2 sertifikatla təltif olunmuş ilk və yeganə qazma müəssisəsidir. Bununla yanaşı, SOCAR AQŞ Ukray-na və Banqladeşdə fəaliyyət coğ-rafiyasını genişləndirməklə müvafiq müqavilələr üzrə nəzərdə tutulan işlərin icrasını uğurla həyata keçirir.

**Azərbaycan Mətbuat Şurası-nın sədri, Milli Məclisin deputatı Əflatun Amaşov** isə müsabiqənin təşəbbüskarı olan SOCAR AQŞ şirkətinin neft-qaz sənayesindəki uğurlarını yüksək qiymətləndirib, Azərbaycan qazmaçılarının həm Xəzərin Azərbaycan sektorunda, həm də xaricdə həyata keçirdiyi qazma layihələrini böyük nailiyyət adlandırıb.

Azərbaycan Mətbuat Şurasının sədri bildirib ki, Azərbaycan neft-qaz sənayesində qazma işlərinin zəngin ənənələrini uğurla davam etdirən və davamlı olaraq yeni nailiyyətlərə imza atan SOCAR AQŞ-nin bu tarixi hadisəyə verdiyi dəyəri və jurnalistlər arasında keçirilən yaradı-cılıq müsabiqəsinə göstərdiyi dəstəyi yüksək qiymətləndirib.

Mətbuat Şurası ilə birgə keçirilən müsabiqə həm milli neft-qaz sənayesində qazma işlərinin zəngin tarixini və perspektivlərini ictimaiyyətə çatdırmaq, həm də bu sahədə çalışan mətbuat nümayəndələrinin səmərəli fəaliyyətini dəyərləndirmək məqsədi daşıyır.

*"Xalq qəzeti"*

Xalq qəzeti .- 2019.- 5 sentyabr.- S.7.